**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ŞƏMSİ MİRİ QƏFFARZADƏ**

# MÜASİR GÜNEY AZƏRBAYCANDA AİLƏ MÜNASİBƏTLƏRİ (URMIYA ŞƏHƏRININ MATERIALLARI ƏSASINDA)

5102.01 - Etnoqrafiya və etnologiya

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

## AVTOREFERATI

**BAKI – 2016**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun “Etnososioloji tədqiqatlar” şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Əliağa Əyyub oğlu Məmmədli**
Antropologiya üzrə elmlər doktoru

**Rəsmi opponentlər:** **Nərgiz Malik qızı Quliyeva**
Tarix üzrə elmlər doktoru

**Gülzadə Sərxan qızı Abdulova**
Tarix üzrə fəlsəfə doktoru

**Aparıcı müəssisə:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin “Ümumi tarix” kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdindəki 5102.01 - Etnoqrafiya və etnologiya ixtisası üzrə tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən F/D. 01.171 saylı Dissertasiya Şurasının «_29___» ___02______ 2016-cı il tarixli iclasında saat “___” keçiriləcəkdir.

**Ünvan:** Az 1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___» ___________ 2016-cı ildə göndərilmişdir.

F/D. 01.171
Dissertasiya Şurasının Elmi katibi,
Tarix üzrə fəlsəfə doktoru **Səfər Hüseyn oğlu Aşurov**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Milli adət-ənənələr hər bir xalqın keçmiş tarixi ilə əlaqədar olub maddi-mənəvi mədəniyyətinin uzun müddət inkişafı nəticəsində yaranmış, tarix boyu təkmilləşərək nəsildən-nəsilə keçmiş, onun müasir maddi-mənəvi mədəniyyətinin əsas özəyini təşkil edir. Beləki, milli adət-ənənələr xalqın milli mentalitetini əks etdirən bir amil kimi ictimai inkişafın bütün tarixi mərhələlərində xalqın mədəniyyətinin əsas göstəricisi kimi özünü büruzə vermiş, cəmiyyət inkişaf etdikcə ictimai quruluşun sosial-siyasi xüsusiyyətlərini özündə əks etdirmiş, bir ictimai iqtisadi formasiyadan digər formasiyaya inteqrasiya olunmuş və daha da zənginləşmişdir. Bu səbəbdən hər bir ictimai iqtisadi formasiya cəmiyyətin ictimai quruluşu, onun dini, siyasi ideologiyası, milli adət-ənənələrin formalaşmasına, zənginləşməsinə, həmçinin onun maddi, mənəvi və bədii dəyərlərinə öz təsirini göstərmiş, xalqın milli sərvətinə çevrilmişdir. Başqa sözlə, "Milli adət-ənənələr, mərasimlər xalqımızın milli sərvətidir. Onları öyrənmək, öz əməli fəaliyyətlərində ləyaqətlə yaşatma hər bir azərbaycanlının müqəddəs borcudur".

Bu adət-ənənələrdən biri nikah-toy mərasimlərinə aid olan adət-ənənələrdir. Nikah-toy mərasimləri hər bir cəmiyyətin mədəniyyətinə xas olan ən mühüm və ən geniş yayılmış adət-ənənələr özünəməxsus təkrar olunmaz səciyyəvi xüsusiyyətlərə malikdir. Bütün dünya xalqları bu adət-ənənələri müqəddəs qohumluq əlaqələrinin başlanması üçün yaratmış və bu xoşbəxt, sevincli mərasimlərin həyata keçirilməsi zamanı icra etmişlər. Bu rəngarəng və müxtəlif adət-ənənələr xəzinəsinin keçmiş tarixinin öyrənilməsi, bu mədəni xəzinənin araşdırılması, qorunub saxlanılması, hər bir xalqın mədəni xəzinəsinin zənginləşdirilməsi üçün çox zəruridir.

Nikah-toy mərasimləri ən kiçik ictimai vahid olan yeni bir ailənin formalaşmasıdır. Buna görə də sosioloqlar ailənin formalaşması, yaranması məsələsinə xüsusi diqqət yetirmiş və onun hər bir cəmiyyətdə ictimai həyatın ilkin özəyi olaraq nəzərdə tutmuşlar.

Qadınların həyat dəyərlərinin, psixoloji sağlamlığının ailə həyatı qurulduqdan sonra xoşbəxt olması həm onların öz sağlamlığına və həm də cəmiyyətin sağlamlağına təsir göstərir. Halbuki, çox zaman müşahidə edirik ki, cəmiyyətin bu zərif üzvüləri erken yaşlarında ailə həyatı qurmaqla, ərləri tərəfindən incidilməklə, boşanmalara və psixoloji sarsıntılara məruz qalmış olurlar. Bu isə, öz nöbəsində, övladların sağlam əhval-ruhiyyədə tərbiyə

olunmasına mənfi təsir edir. Qeyd edilən amillər ictimai xarakter daşıdığından onların səbəblərinin öyrənilməsi müasir antropologiya elminin vacib məsələlərindən birini təşkil edir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Tədqiq edilən mövzunun müasir cəmiyyətimizdə son dərəcədə mühüm məsələlərdən birini təşkil etməsi onu müxtəlif elm sahələri tərəfindən, o cümlədən, sosiologiya, psixologiya, ilahiyyat, tarix, hüquq, antropologiya və s. tədqiq edilməsinə dəlalət edir.

Milli adət-ənənələr, nikah-toy mərasimləri, qadın və ailə, ailədə övladların tərbiyə olunması məsələlərin tədqiqinə çoxsaylı elmi məqalələr, monoqrafiyalar həsr edilmişdir.

İran tədqiqatçılarından Reyhanə Fərhəngi, Əbdülkərim Əyyubi, Abdullah Mustofi, Ruqiyyə Hacı Məhəmməd Yari, Mərziyə Arifi, Şəhla Ezzazi, Fərrux İslamlu, Həngamə Xacəvi Kiya və başqalarının adlarını çəkmək olar.

Xanım R.Fərhəngi "Adab və rosume aşenai və xastqari" (Tanışlıq adət-ənənələri və elçilik) adlı monoqrafiyasında keçmiş dövrdən müasir dövrə qədər İranda mövcud olmuş adət-ənənələri, qız və oğlan ailələri arasında əlaqələrin yaradılması və fikir mübadiləsinin aparılması üçün xüsusi qadınların (“araçı”) rolunu, elçilik xüsusiyyətlərini, nikah-toy mərasimlərini tədqiq etmişdir.

N.Katuziyan "Hoquqe-mədəniye Xanevade" kitabında (Ailənin mülki hüququ) keçmiş dövrdən indiyədək İranda ailə və onun strukturunu təhlil etmiş və onun kiçik bir ictimai vahid olduğunu göstərmişdir. O qeyd etmişdir ki, ictimai nöqteyi-nəzərdən ailə ən əsas ictimai bir vahiddir və cəmiyyətin inkişafında mühüm rol oynayır. Buna görə də demək olar ki, ailə ilə cəmiyyət arasında ikitərəfli qarşılıqlı əlaqə mövcuddur, hər biri digərinə təsir göstərir.

Psixoloq alim M.Parsa "Zəmine-ye rəvanşenası" (Psixologiyanın əsası) adlı kitabında qeyd edir ki, valideynlər tərəfindən məcburi olaraq ərə verilən qızlar psixoloji və zehni pozğunluğa malik olur, onların durumu təhlükə ilə üzləşir. Onlar qəflətən isti ailə ocağından ayrılır, sanki yad bir aləmin təsiri altına düşürlər, ona qarşı heç bir rəğbət və maraq göstərmirlər.

Məcburi şəkildə evlənmələr və ailə həyatı qurmaq təkcə ailə quran fərdlərin bədbəxtliyi ilə sonunclanmır. Bu cür ailə həyatı qurulması, ən kiçik ictimai vahid olan ailəni dağıdır və ailə cütlüyünün hər ikisi üçün qarşısıalınmaz və aradan qaldırılması mümkün olmayan problemlər yaradır. Bu ictimai problemləri tədqiq edən iranlı alim-sosioloq H.Məsləhəti "Evlənmə və profi-

laktikalı evlənmə" əsərində məcburi evlənmələrin yaratdığı problemləri və bu problemlərdən çıxış yollarını göstərmişdir.

Dünya üzrə qadınlara qarşı işlədilən məişət zorakılığı haqqında məlumatlar inkişaf səviyyəsindən asılı olmayaraq bütün ölkələrdə və inkişaf etmiş modern cəmiyyətlərdə mövcuddur. Bu mövzunun əhəmiyyətini nəzərə alaraq İranda qadınlara qarşı işlədilən məişət zorakılıqlarını iki alim-sosioloq Rəfifər Şəhram "Xoşunət əleyhe zənan" adlı kitabında tədqiq etmiş və İran cəmiyyətində qadınlara qarşı işlədilən zorakılıqların, xüsusilə erkən yaşlarında qızların ərə verilməsinin qarşısını almaq üçün çıxış yollarını göstərmişlər.

Şəhla Ezzazi "Ailənin sosiologiyası" adlı kitabında göstərmişdir ki, bir çox qadınlar ərləri tərəfindən incidilmələrini, zorakılığa məruz qalmalarını, döyül-mələrini utandıqlarından və qorxularından biruzə vermirlər. Onların çoxu ərlərinin zorakılıq hərəkətlərini adi hal kimi qəbul edirlər. Bir çox qadınlar isə, onların söyləyəcək problemlərinə heç kəsin inanmayacağını düşünürlər. İnansalar da belə, dözməkdən başqa çarələri yoxdur.

Müasir İran cəmiyyətində qadınlara qarşı işlədilən məişət zorakılıqlarından biri və ən əsası çoxarvadlılıq olduğundan bir çox xarici müəlliflərin Vill Dorantın "Məşrıqzəmin qahvareye təməddon" [Sivilizasiyanın beşiyi Şərq], "Tarix-e təməddon" [Sivilizasiyanın tarixi], Monteskonun "Ruh əlqəvanin", N.Katuziyanın "Hoquq-e mədəni-ye xanevade" [Ailənin mülki hüququ], və Giddens Anthoninin "Sosiology" [Sosiologiya], kitabında çoxarvadlılıq və onun yaratdığı problemlər, qadın hüquqlarının pozulması və çıxış yolları tədqiq olunmuşdur.

Həmçinin N.Katuziyanın "Hoquqe mədəniye xanevade" [Ailənin mülki hüququ], A.Boxarayinin "Camee şanesiye enherafate ectemai dər İran" [İranda ictimai dəyişikliklərin – xətaların sosiologiyası], M.Biraminin "Xanevade və asıbşnasiye an" [Ailə və ona dəyən zərərlərin tədqiqi], əsərlərində İranda boşanma halları və onun uşaqların təlim-tərbiyəsinə vurduğu zərərlər, bu problemlərin aradan qaldırılması üçün təkliflər irəli sürülmüşdür.

Azərbaycan Respublikasında nikah, toy adət-ənənələrinə həsr olunmuş çoxlu sayda tədqiqat işləri aparılmışdır. Bu elmi əsərlər arasında Q.Ə.Qeybullayevin, H.A.Quliyevin, N.M.Quliyevanın, T.A.Səlimovun, H.Q.Qadirzadənin əsərlərini xüsusilə qeyd etmək lazımdır. Bu tədqiqatlarda müasir Azərbaycan Respublikası ərazisində tarixən formalaşan nigah formaları, ənənəvi toy mərasimi, ailə məişəti ilə bağlı müxtəlif adət və ənənələr dərindən araşdırılmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsəd və vəzifələri müasir dövrdə İran İslam Respublikasının Qərbi Azərbaycan ostanının nikah-toy mərasimlərinin haqqında adət-ənənələrinin, qadınların ailədə mövqeyinin və övladların tərbiyəsinin və ailə münasibətlərinin araşdırılmasından ibarətdir. Bu məqsəd və vəzifələrə nail olmaq üçün aşağıdakı fərziyyə və iddialar irəli sürülmüşdür:

- Qərbi Azərbaycan ostanının və ostanın mərkəzi olan Urmiya şəhərinin coğrafi mövqeyinin tədqiqi.
- Keçmiş dövrlərdə və ondan sonra ənənəvi, milli nikah-toy mərasimlərinin və ailə münasibətlərinin tədqiqi.
- Qərbi Azərbaycan ostanında yaşayan xristian milli və dini azlıqların nikah-toy mərasimləri haqqında olan adət-ənənələrin tədqiqi.
- Kürdlərin nikah-toy mərasimləri adət-ənənələrinin tədqiqi.
- Müasir və keçmiş dövrdə olan nikah-toy mərasimlərinin növlərinin müqayisəli təhlili.
- Qərbi Azərbaycan ostanında yaşayan köçəri elat tayfaları arasında nikah-toy mərasimləri haqqında adət-ənənələrin tədqiqi.
- Nikah-toy mərasimlərində Quranın yeri.
- Milli və modern nikah-toy mərasimlərinin, toy şənliyindən sonra və ondan əvvəl adət-ənənələrin müqayisəli təhlili.
- Oğlan və qızların tanış olmasında kütləvi informasiya vasitələrinin, internet səhifələrinin və mobil telefonların rolu.
- Ailələrin inkişafı və dəyişməsi prosesi.
- Geniş ailələrin özək ailələrinə çevirilməsi prosesi.
- Nikah-toy mərasimlərindən sonra xüsusilə, kiçik yaşlarında evlənmə, çoxarvadlılıq, qadınlara qarşı işlədilən məişət zorakılığı və boşanma halları zamanı övladların tərbiyəsi probleminin tədqiqi.

**Tədqiqatın obyekti** Müasir Güney Azərbaycanda (Urmiya şəhərinin materialları əsasında) ailə münasibətləridir.

**Tədqiqatın predmetini** İran İslam Respublikasının Qərbi Azərbaycan ostanında ailənin qurulması və müasirlik, müasir ailədə qadının vəziyyəti, uşaqların tərbiyə olunmasında ənənələr və müasirlik təşkil edir.

**Tədqiqatın nəzəri metodoloji əsası.** Qərbi Azərbaycan ostanının nikah-toy mərasimləri və ailə münasibətlərinin tədqiqi zamanı müqayisəli tarixi metoddan istifadə olunmuşdur. Bu tarixi müqayisəli metodologiya əsasında nikah-toy məra-simlərinə aid adət-ənənələr, ailədə qadının mövqeyi və yeri, müasir dövrdə övladların tərbiyəsi zamanı aparılmış tədqiqatların

nəticələrindən, bu mövzu haqqında olan elmi kitab, monoqrafiya, məqalələrdən və internet saytlarından istifadə olunmuşdur.

**Dissertasiya işinin elmi yeniliyi** ondan ibarətdir ki, Qərb ölkələrində, İran İslam Respublikasında və sair ölkələrdə bu mövzu ilə əlaqədar olaraq çoxlu elmi kitab və məqalələr yazılmasına baxmayaraq, Qərbi Azərbaycan ostanında nikah-toy mərasimləri və ailə münasibətləri fundamental, ayrıca dissertasiya şəklində tədqiq olunmamışdır.

**Tədqiqatın elmi-nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işi tələbələr, tədqiqatçılar və həmçinin ümumi xalq kütləsi üçün Qərbi Azərbaycan ostanında yaşayan müxtəlif xalqların nikah-toy mərasimləri, adət-ənənələri və ailə münasibətləri haqqında mənbədir və bu tədqiqatın tövsiyələrindən cavanlar gələcək həyat yoldaşının seçimində, ayıqcasına nikah-toy mərasimlərinin müxtəlif mərhələlərini keçirmək üçün istifadə edə bilərlər.

**Tədqiqat işinin aprobasiyası.** Tədqiqat işi Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun Etnososioloji tədqiqatlar şöbəsində yerinə yetirilmiş, mövzu ilə əlaqədar olan məqalələr xarici ölkələrdə, İran İslam Respublikasının və Azərbaycan Respublikasının elmi nəşriyyatlarında, İran İslam Respublikasında və Azərbaycan Respublikasında keçirilmiş elm konfransların materiallarında dərc edilmişdir.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və təkliflərdən, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Girişində** mövzunun aktuallığı əsaslandırılır, Mövzunun öyrənilmə səviyyəsi tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri müəyyən olunur, işin nəzəri və metodoloji əsasları, elmi yeniliyi, təcrübi əhəmiyyəti və aprobasiyası göstərilir.

**"Ailənin qurulması və müasirlik"**adlanan birinci fəsildə ənənəvi toy adət-ənənələri, toya qədərki mərhələ, toy mərasimi, müasir dövrdə toy mərasimi, Azərbaycan Respublikasında nikah-toy mərasimləri və onların İran Islam Respublikasının Qərbi Azərbaycan ostanındakı nikah-toy mərasimləri ilə müqayisəli təhlili tədqiq edilmişdir.

Fəsildəİran İslam Respublikasının Qərbi Azərbaycan ostanında nikah-toy mərasimləri ilə bağlı adət-ənənələri araşdırılır, ostanın coğrafı şəraiti, onun milli, dini rəngarəngliyi, nikah-toy adət-ənənələrinin bütün tərkib hissələri şərh edilir.

Qərbi Azərbaycan ostanının mərkəzi olan Urmiya şəhəri Azərbaycanın ən qədim və gözəl şəhərlərindən biridir. Urmiyada müxtəlif xalqlar və milli azlıqlar yaşayırlar. Burada azərbaycanlılar, farslar, kürdlər, assurilər və ermənilər yaşayırlar. Fars dili rəsmi dövlət dili olmasına baxmayarq ostan daxilində əsas ünsiyyət vasitəsi Azərbaycan dilidir.

Burada yaşayan köçəri tayfa və qəbilələrin, azərbaycanlıların, kürdlərin, xristianların, şiyələrin, sünnilərin və sair azsaylı xalqların özlərinə məxsus mərasimləri, bayramları, milli və dini bayramları və qara bayramları vardır və onların hər birinin spesifik xüsusiyyətləri və cazibədarlığı vardır. Bu adət-ənənələrin, xüsusən cavan nəslə təlqin edilməsi həmin adət-ənənələrin qorunub saxlanılması bu mədəni xəzinənin daha da zənginləşməsini artıracaqdır. Köçəri tayfa və qəbilələr, həyat tərzi, dili, musiqisi, rəqsləri, xörəkləri, milli geyimləri, kustar sənaye məhsulları və bayramları insanların milli həyatının əsasını təşkil edir və təbiətlə ahəngdardır.

Dissertasiyada göstərilir ki, qədim tarixə malik olan hər bir xalqın öz adət-ənənələri vardır və həmişə keçmiş nəsildən gələcək nəsillərə keçir, onların milli mentalitetinin ən mühüm göstəricisi sayılır. Bu adət-ənənələr çox böyük məna kəsb etməklə yanaşı hər bir ölkə əhalisinin, ümumi xüsusiyyətlərini təşkil edir. Hər bir cəmiyyətin mədəniyyəti insanların yaşayış tərzinin və təcrübəsinin nəticəsi olduğundan xüsusi dəyərə və hörmətə malikdir. Həmin adətlərin bir hissəsi hər bir ölkənin xalqlarının milli mənəvi dəyərləri olmaqla onu dünyada tanıtdıran bir vasitədir. Müasir qloballaşma dövründə xalqların ənənəvi dəyərləri, adət-ənənələri, dəyərli adət-ənənələri, təcrübələri tədricən unudulduğundan cəmiyyətdə tarixən mövcüd olmuş mədəni, ədəbi xəzinəsinin öyrənilməsi, qorunub saxlanılması böyük əhəmiyyət kəsb edir.

Tədqiqat işində***“Toya qədərki mərhələ***” tədqiq edilərkən qeyd edilir ki, əvvələrvalideynlər övladların evləndirməkləri üçün “araçı" qadınların köməyindən istifadə edirdilər. Həmin qadınlar ərə getmək ərəfəsində olan qızları göstərir, onların üstün və çatışmayan cəhətlərini qeyd edirdilər. Bu günki telefonu əvəz edərək, iki ailə arasında xəbər aparıb gətirərdilər. Adətən Məhərrəm və Səfər dini matəm aylarını xeyir iş üçün münasib bilməzdilər. Hicri təqvimi ilə Rəbuləvvəl ayının biri peyğəmbərin hicrət etdiyi günə təsadüf etdiyi üçün münasib və yaxşı bir gün hesab edərdilər.

Fəsildə “nişanlanma”, “ad eləmə”, “qızın cehizini oğlanın evinə yola salınmasına”, “hənayaxdı gecəsinə”, “gəlinin bəzənməsi” kimi toya qədərki ənənəvi toy mərasimlərinə geniş yer verilir.

Tədqiqat işində nikah-toy mərasiminin kulmunisiya mərhələsini təşkil edən “***Toy mərasimi”*** təfsilatı ilə verilir. Qeyd edilir ki, nikah mərasimi üçün bir otaq ayırırlar. Nikah mərasimindən öncə bir neçə zövqlü qadın otağı yaxşı bəzəyirlər. Nikah süfrəsinə adətən, noğul və şirniyyat, bir neçə kəllə qənd, bir neçə gül buketi, gülabdan, xonça, su kasası qoyulardı. Nikah vaxtı qızı güzgü ilə üzbəüz əyləşdirərdilər. Nikah oxunan zaman qız güzgüyə baxmalıdır ki, bəxti də güzgü kimi təmiz, saf olsun. Nikah oxunan zaman iki qadın ağ parçanı qızın başı üzərinə tutar və qadınlardan biri gəlinin başına şirniyyat tökərdi. Nikah oxunduqdan sonra bir neçə saat saz çalar, rəqs edərdilər. Gəlin bəyin evinə daxil olduqdan sonra qohum qadınlar gələr və təbrik edərdilər. Onlar gəlinin başına noğul və pul səpərdilər.

Cülman və yallı rəqsləri Qərbi Azərbaycan ostanında yaşayan əhalinin yerli toy mərasimi rəqsləri ən keçmiş adətidir və bu günə qədər qorunub saxlanılır. Bu adət-ənənəyə Qərbi Azərbaycan ostanının şümalında daha çox riayət olunur. Toy mərasimlərində cavanlar və ailə üzvləri bir-birinin əlindən tutub saz və nağara çala-çala ayaqların eyni hərəkətləri ilə rəqs edər və mahnı oxuyardılar.

Tədqiqatın ***“Müasir dövrdə toy mərasimi”*** adlanan bölməsində müasir dövrdə nikah-toy adət-ənənələrinin xüsusiyyələri, onların bəzilərinin unudulması, innovasiyalara üstunluk verilməsi, milli mentalitetə uyğun olmayan mənfi hallar araşdırlır. Burada “telefonla alınan elçi getmək icazəsi”, “elçilik gününün təyin edilməsi”, “elçilik üçün gül və şirni almaq” “elçilik üçün seçilən dəbli və şux rəngli paltar”, “elçilik”, “qızı bəyənmək”, “çayınızı şirin edin”, “xeyir-dua” (bəle burun), “mehriyyə” (başlıq pulu), “südpulu” adətlərindən, "deyikli", “nikah”, “hənəyaxma”, "ayaq açdı", "qayınanaya salam", “gəlini bəzəməyə aparılması”, “oğlan və qızın ayağı altında qurbanlıq qoyun kəsilməsi”, “patəxti” (döşəkaltı) mərasimlərindən bəhs edilir. Qeyd edilir ki, müasir dövrdə toy mərasimləri və həyat yoldaşı seçimi meyarları dəyişikliklərə məruz qalmışdır.

Bu gün bəşər həyatı informasiya əsrində bu informasiya rabitəsinin güclü təsirinə məruz qalaraq ənənəvi tanışlıq məkanları ilə yanaşı virtual tanışlıq da cütlüklərin evlənməsində mühüm rol oynayır. İnternetlə evlənmə məfhumu (“e-marriage”) XX əsrin 90-cı illərindən etibarən lüğətlərə daxil olmuş və həqiqətdə onlar internetin yaratdığı imkan nəticəsində cütlüklər bir-birini virtual aləmdə görmüş, bir-biri ilə tanışlıqdan sonra ailə həyatı qurmağa razılıq vermişlər. Qərbi Azərbaycan ostanında müasir dövrdə ailə həyatı qurmaq məsələsi ənənəlikdən müasirliyə doğru irəliləməkdədir. Bu

proses ailə həyatı qurmaq məsələsində nəsillərin fərq məsələsində də özünü büruzə verir. Davranış nümunələri və adət-ənənləri o qədər sürətlə baş verir ki, bu fərq valideyn ilə övlad arasında artıq müşahidə edilməkdərdir.

Birinci fəsildə aparılan tədqiqatları ümumiləşdirərək qeyd edilir ki, Qərbi Azərbaycan ostanındakı evlənmə mərasimləri, qohumluq, dini, ailəvi, sinfi mülahizələr əsasında böyüklərin məsləhəti ilə aparılırdı. Zaman keçdikcə baş verən dəyişikliklərin nəticəsində bir çox dəyərlərə uyğun olaraq nikah-toy mərasimləri də dəyişikliyə uğradı. Cəmiyyətdə baş verən xarici təsirlər və daxili dəyişikliklər iki nəsil arasında baxışların və dəyərlərin dəyişməsinə səbəb oldu, nikah-toy mərasimlərinin, həyat yoldaşının seçilməsində yenilik yaratdı. Amma bununla belə, iki nəsil arasında bu mərasimlərlə bağlı müştərək xüsusiyyətlər və oxşarlıqlar qalmaqdadır.

***"Azərbaycan Respublikasında nikah-toy mərasimləri və onların İran İslam Respublikasının Qərbi Azərbaycan ostanındakı nikah-toy mərasimləri ilə müqayisəli təhlili"***adlanan bölmədə nikah-toy adət-ənənələri Azərbaycan mədəniyyətinin tərkib hissəsi olaraq əsrlər boyu Azərbaycanın müxtəlif tarixi bölgələrində inkişaf etmiş vahid və zəngin bir adət sisteminə çevrilmisəndən bəhs edir. Belə ki, toy mərasimi ənənəvi olaraq rəsmi nikah mərasimi olmaqla yanaşı bir-biri ilə bağlı təntənəli ənənələr ("qız bəyənmə", "elçilik", "nişanlılıq dövrü", "toy" və s.) sistemidir.

Azərbaycan Respublikasında nikah-toy mərasimlərini İ.İ.R. Qərbi Azərbaycan ostanındakı nikah-toy mərasimləri ilə müqayisə etdikdə belə nəticəyə gəlmək olar ki, iki ölkə arasında müxtəlif fərqlərin olmasına baxmayaraq bunların arasında oxşar adət-ənənələr də mövcuddur.

**"Müasir ailədə qadinin vəziyyəti"** adlanan ikinci fəsil üç paraqrafdan: ***"Müasir ailənin növləri", "Erkən nigahların ailə münasibətlərinə təsiri", "Çoxarvadlılıq və boşanmanın ailəyə təsiri"*** ibarətdir. Fəslin***"Müasir ailənin növləri"*** adlanan birinci paraqrafında müasir dövrdə ailə mövzusu cəmiyyətin fundamental, qədim və sosial təsisatı kimi bir çox sosioloq, sosial-psixoloq və etnoqraflar tərəfindən diqqət mərkəzinə alınması qeyd edilir. Xüsusilə, bu diqqət ailədə baş verən müasir dəyişikliklər fonunda ailədaxili münasibətlər, qız və oğlanlar, ər və arvad arasındakı münasibətlər, övlad və valideyn arasındakı münasibətlər cəmiyyətin sosial şəraitinin təsiri altında dəyişikliklərə yetirilır.

Qərbi Azərbaycan ostanının Vətəndaş Vəziyyəti Aktları üzrə Baş İdarəsinin məlumatında qeyd olunmuşdur ki, 2010-cu ilin birinci yarısında ostan üzrə baş verən 18 min 951 evlənmə aktı sırasında 10 yaşına çatmayan

6 qız uşağına və 15 yaşına çatmayan 55 oğlan uşağına rast gəlinir. 2011-ci ildə Urmiya şəhərində 5993 evlənmə aktı və kəndlərdə 3992 evlənmə aktı qeydə alınmışdır. Bu məlumata əsasən 10 yaşına çatmamış 13 qız və 10-14 yaş arası 1488 qız uşağının evlənmə aktı qeydə alınmışdır.

Erkən yaşlarında baş verən evlənmə hallarına ənənəvi, qapalı və inkişaf etməmiş ölkələrdə tez-tez rast gəlinir. Bu prinsip tarixin müəyyən zamanında uğurlu olsa da belə lakin mədəni və sosial inkişafdan sonra cəmiyyət üçün bir sıra problemlər yaratmaqdadır. Çünki, cismi və mənəvi cəhətdən yetkinliyin olmaması, uşaqları tərbiyə etmək üçün hazırlığın olmaması, sosial və iqtisadi məsuliyyəti qəbul etməyə hazır olmamaq, ata-ana və həyat yoldaşı kimi ağır məsuliyyəti qəbul etməyə hazır olmamaq təkcə onların ziyan çəkməsinə səbəb olmur, eyni zamanda ailə dayaqlarının sarsılmasına gətirib çıxarır və cəmiyyətdə neqativ halların yaranmasına səbəb olur.

Statistikaya görə dünya miqyasında 20-24 yaşında olan qadınların təqribən 36%-i 18 yaşına çatmamaış ailə həyatı qurmuşlar. İl ərzində yetkin-lik yaşına çatmayan 15-19 yaşlı təqribən 14 milyon qadın dünyaya uşaq gəti-rir. Doğum zamanı dünyasını dəyişən qadınların statiskasına nəzər saldıqda isə biz 15 yaşında dünyasını dəyişən qadınların 20 yaşında dünyasını dəyişən qadınlardan 5 dəfə çox olduğunu görürük. 18 yaşına çatmayan qızlar 19 yaşına çatan qızlar ilə müqayisədə 60 % çox ilkin doğuş zamanı övladlarını itirirlər. Hətta əgər övladları sağ qalsa belə çəkiləri az olur, gec və zəif inkişaf edirlər.

Uşaqların kiçik yaşlarında ailə həyatı qurmasının əsas səbəblərindən biri valideynin kasıb olmasıdır. Valideynin kasıb olması azyaşlı qız uşağının özündən çox yaşlı biri ilə evlənməsinin əsas səbəbidir. Bir çox hallarda valideyn kasıb olduğu üçün qız uşağı evə əlavə yük olmasın deyə və habelə yaşlı varlı bir kişi ilə evləndirməklə özlərinin maddi sıxıntılarını düzəltmiş olurlar. Bu tip cəmiyyətlərdə ailə həyatı qurmaq qız ailəsi üçün iqtisadi imtiyaz hesab edilir. Bu tip cəmiyyətlərdə qız bəzən pul qarşılığında və bəzən isə borc pulun bağışlanması qarşılığında ərə verilir. Bu tip evlənmələri araşdırdıqda belə nəticəyə gəlmək olar ki, bu tip ailələr adətən valideynlərin məcburiyyəti əsasında yaranırlar. Ona görə də bu cür evlənmələr fərdə və ailəyə ziyanlar vurur. Ailəyə dəyən zərərlər zamanı psixiatrik amillər çox böyük təsirə malikdir.

***“Erkən nigahların ailə münasibətlərinə təsiri”*** bölməsində məcburi nikahların mənfi nəticələri ilk öncə qızların (xüsusilə də uşaq yaşlarında)

cisminə və bədəninə və eləcə də cismi sağlamlığına mənfi təsiri göstərilir. Məcburi nikahların mənfi təsirləri qadının doğuş orqanlarının zədələnməsinə, doğuş zamanı anaların və qızların ölməsinə, qüsurlu uşaqların dünyaya gəlməsinə, qızların öz uşaqlarını saxlamaq üçün kifayət qədər qüdrətinin olmamasına, uşaq və ananın pis qidalanmasına və s. gətirib çıxarır. Valideynin məcburiyyəti qarşısında ailə həyatı quran bir çox qızlar psixi və mənəvi problemlər yaşayırlar. Həmin qızların psixi sağlamlığı təhlükə altında olur. Xüsusilə də bu problem qızla oğlan arasında böyük yaş fərqi olduqda özünü kəskin şəkildə biruzə verir. Bu qızlar özlərini digər qızlarla müqayisə etdikdə özlərini alçaldılmış və təhqir edilmiş hesab edirlər. Bu halda özlərinin gücsüzlük və bacarqısızlığını anlayır və özünü həmin qızlardan aşağı və əlacsız hesab edirlər. Məcburi nikahların fəsadları yalnız qızla sonuclanmır həm də qızın qurduğu ailəsini də təhlükə altına alır.

Tədqiqatda qadın əleyhinə zorakılıq dərin təhlil edilir. Birləşmiş Millətlər Təşkilatının tərifinə əsasən: "qadın eleyhinə zorakılıq dedikdə, qadının əziyyətinə səbəb olan hər hansı cismi, cinsi və psixoloji davranış nəticəsində zərbə alması" qeyd edilir. Burada məişət zorakılığının ən geniş yayılmış formaları "cismi zorakılıq" (aşkar və gizlin), "təhdid və qorxutmaq" (evi tərk etmək, uşağı incitmək, boşanmaq ilə təhdid etmək, intihar, başqasını öldürmək və ya heyvan öldürməklə qorxutmaq, qorxutmaq məqsədi ilə polis ilə daimi ünsiyyətlər, pasport, şəxsiyyət vəsiqəsi, müalicə dəftərçəsini, kəbin kağızını, xatirə dəftərini, mülki sənədlərini gizlətmək, cəmiyyətə çıxan vaxtları onun hərəkətlərini nəzarət altına almaq, qadının şəxsi telefonunu izləmək, qəfildən evə gəlmək, qadının xəbəri olmadan otağına daxil olmaq) təhlil edilir.

Tədqiqatda cinsi zorakılıqlar: qadının meylinə uyğun olmayan hər hansı bir cinsi davranışa məcbur etmək, seks filmlərinə və ya seks şəkillərinə baxmağa məcbur etmək, cinsi əlaqə zamanı gigiyenik qaydalara riayət etməmək (xüsusi ilə də AİDS, Hepatit kimi cinsi yol ilə keçən xəstələr üçün), qadının uşaq istəmədiyi halda kişinin qorunmaması və nəticədə hamilə qalan qadının abort etdirməyə məcbur qalması araşdırılır.

Dissertasiyada maliyyə zorakılığı (iqtisadi sanksiya) ailə üzvlərini iqtisadi cəhətdən sıxıntıda qoymaq, ailənin gəlirlərini atası və ya anası üçün xərcləmək, zorla həyat yoldaşına məxsus olan əmlaka sahib çıxmaq, həyat yoldaşını özünə təslim etmək üçün maliyyə müstəqilliyinin qarşısını almaq kimi hallar öz əksini tapmışdır.

Qadının sosial və təlim inkişaflarının qarşısını almaq zorakılığına da tədqiatda müəyyən yer verilmişdir. Sosial zorakılıq qadının təhsilin dava-

mında məhdudiyyət tətbiqi etmək, sosial və pedaqoji bacarıqların öyrənilməsində qadının qarşısını almaq, peşəsini davam etdirməyə mane olmaq kimi hallara rast gəlindiyi qeyd edilir.

Psixoloji zorakılıqlar: təhqir edici ifadələr və söyüşlərdən istifadə etmək, davamlı olaraq kobudluq və bəhanələr gətirmək, qorxu və günah hissini yaratmaq, maliyyə işləri, ev xərcliyi, qadın və uşaqları saxladığı üçün minnət qoymaq, birinci arvadının razılığı olmadan yenidən evlənmək, mühüm görüşlər və gediş-gəlişlərdə nizam-intizamı gözləməmək, hökmranlıq davranışlarından ibarət olunduğu qeyd olunur.

2002-ci ildə Urmiya şəhər bələdiyyə şurasına məişət zorakılıqla bağlı müraciət edən 272 qadın üzərində aparılan araşdırmadan belə məlum olur ki, ən çox zorakılığa məruz qalan 17-32 yaş arası qadınlardır (56%). Məişət zorakılığına məruz qalan qadınların 60%-i ibtidai təhsil almış və 20%-i ümumiyyətlə savadsızdır. Zorakılığın ən böyük həcmi cismi və fiziki zorakılıq (50%), psixoloji zorakılıq (25,7%), iqtisadi zorakılıq (23,2%) təşkil etmişdir.

Tədqiqatda qadın əleyhinə məişət zorakılığının nəticələri kimi: özünü yandırmaq, intihar etmək, başqasını öldürmək, boşanmaq, cinayət əməli törətmək, evdən qaçmaq, məhsuldarlığın azalması, bədən xəsarətləri ilə şikayətlər, özünə hörmətin azalması faktları göstərilir.

***"Çoxarvadlılıq və boşanmanın ailəyə təsiri"*** bölməsində çoxarvadlılıq və onun ailəyəy təsiri ilk növbədə birinci arvada qarşı məişət zorakılığının bir növü kimi tədqiq edilir.

Araşdırmada çoxarvadlıq üçün atılan müxtəlif addımlar:*gizlin addımlar*, a*çıq-aşkar addımlar, tərəflərin razılığı ilə atılan addımlar müəyyənləşdirilir.* Qeyd edilir ki, təkarvadlı ailələr ilə müqayisədə çoxarvadlı ailələrdə birinci arvadların cismi və fiziki problemləri daha çox olur. Habelə, həmin qadınların özünü qiymətləndirməsi çox aşağı olur və onlar özlərini daha çox tənha hiss edirlər. Adətən bu qadınlar həyat yoldaşları tərəfindən ədalətsizliklə qarşılaşırlar. Psixoloqlara görə, çoxarvadlığın yaratdığı psixoloji təsir və problemlər içərisində stress, guşəneşinlik, yuxusuzluq, möhkəm zehni yorğunluq, hövsələsizlik, intizamsızlıq, iştahsızlıq, kobudluq kimi psixi problemlər üstünlük təşkil edir.

Tədqiqatda çoxarvadlığın birinci arvadın həyatına, uşaqların durumuna və ümumiyyətlə ailəyə təsiri nəticələri: birinci arvadın məhəbbət azlığı və özünü tənha hiss etmək, öz qohumları, tanışları və dostları tərəfindən təhqir edilməsi və ailədə yaxşı xanım olmamaq ittihamı ilə qarşı-qarşıya qalması, ailədə etimadsızlığın yaranması, ögey ailələrin yaranması, ailədə iqtisadi

problemlırinin yaranması, Ailədə ixtilafların yaranması, uşaqların psixi cəhətdən zərbə alması təhlil edilir.

Boşanma halı böyük bir ictimai bəla kimi öz əksini tədqiqatda tapmışdır. Qərbi Azərbaycan ostanının Ailə Vəziyyəti Aktı üzrə Baş Qeydiyyat İdarəsinin kütləvi informasiya vasitələrinin məlumatına əsasən, 1390-cı ildə (2011-ci ildə) Qərbi Azərbaycan ostanında 4876 boşanma qeydə alınmışdır. Onlardan 1361-i Urmiya şəhərində olmuşdur. Bu boşanmaların 331-i 25-29 yaşlı kişi və qadınlar arasında olmuşdur. Ən az boşanma halları isə 70-74 yaşlı kişi və qadınlar arasında (9 nəfər) olmuşdur.

Boşanmanı yaradan səbəblər bir neçə yerə bölünür: iqitsadi səbəblər (kasıbçılıq, işsizlik, dəbdəbəli həyat tərzinə vurğunluq, həddən artıq işə vurğun olmaq, bədxərclik və s.), sosial səbəblər (ətrafdakıların müdaxiləsi, narkomaniya, yersiz tanışlıqlar, və s.), mədəni səbəblər (xurafata inanmaq, təhsil səviyyəsi, tərbiyə fərqi), psixoloji və fiziki səbəblər (xəstəlik, bədgümanlıq, diqqətsizlik, zorakılıq, paxıllıq və eqoistlik, həddən artıq ummaq və s.).

Dissertasiya işinin **"Uşaqlarin tərbiyə olunmasinda ənənələr və müasirlik"** adlanan sonuncu fəsil ***"Ailə münasibətlərində uşaqların yeri", "Uşaqların tərbiyəsində ənənələr və müasirlik", "Modernizmin ailəyə təsiri"*** adlı üç paraqrafdan ibarətdir.

Fəslin ***"Ailə münasibətlərində uşaqların yeri"*** adlanan birinci paraqrafda müasir zamanda uşaqların tərbiyə üsulu araşdırılır, ailənin fəaliyyətinə yeni rabitə texnologiyasının təsiri tədqiq olunur, informasiya və elektron inqilabi əsrində ailənin uşaqların tərbiyəsi sahəsindəki problemlər və çətinliklər tədqiq olunur.

Tarix boyu uşaqların tərbiyəsi həmişə dəyişkən və təkmilləşən bir yol keçməsi qeyd edilir. Keçmiş zamanlarda cavan nəslin məlumat, məharət və bilik mənbəyi cəmiyyətin ağsaqqalları, yaşlı adamları olmuşlar. Onlar öz təcrübə və məlumatlarını sonrakı nəslə ötürmüşlər. Lakin zaman keçdikcə ailəyə yeni rabitə texnologiyaların sürətlə daxil etməsilə cavanların bilik və məharət qazanması üçün yeni mənbələr yarandı. Ənənəvi tərbiyə öz yerini modern tərbiyəyə verdi.

Klassik ailə üzvlərini ata, ana, övladlar, babalar və nənələr təşkil edir. Bu tip ailələrdə hər bir üzvün mövqeyi bəllidir və hər birinə hörmət edilir. Ailə başçısı ailə üzvlərinin davranışına nəzarət edir. Əgər övlad ailə həyatı qurmaq və ya təhsilini davam etdirmək məqsədi ilə ailədən ayrılsa belə yenə də nəzarətdən kənarda qalmır və ailə lazım olan an onların köməyinə çatır. Klassik ailələrdə din, inanc, adət-ənənə və məzhəb rituallarının xüsusi yeri

var. Din ilə ailə üzvlərinin davranış və əxlaq sağlamlığı arasında birbaşa əlaqə vardır. Adətən klassik ailə modellerində bütün davranışların əsası məhəbbət, fədakarlıq, ailə üzvlərinin sağlam və rahat yaşamasını təmin etməkdir. Klassik ailə modelində asudə vaxtar daha çox digərlərinə yardım etmək onlarla dərdlərini paylaşmaq və təbiət qoynunda gəzməyə sərf edilir.

Klassik ailələrdə övladların tərbiyəsi ilə onların valideynləri, babaları, nənələri, qardaşı, bacısı, əmisi, bibisi, dayısı, xalası və onların övladları məşğul olurlar. Çox vaxt bu təlimlər Qurani Kərimin və dini kitabların öyrədilməsi ilə başlayardı. Qeyd olunduğu kimi klassik cəmiyyətlərdə və ailələrdə din ilk sözü deyir və dini etiqadlar cəmiyyətin bütün təbəqələrində nəzərə çarpırdı. Dini təlimlərdən əlavə ailə də özündə sosial normalar və adət-ənənələri yaşatmaqla uşağın tərbiyəsində əsas rol oynayır.

Bu gün uşaqlar keçmişdəkinə nisbətən daha çox əyləncə və oyun imkanlarına malikdirlər. Valideyn də keçmişlə müqayisədə həmişə öz övladlarına yumşaq münasibət göstərir, onlarla fikir mübadiləsi edirlər. İndiki dövrdə ata evdə az vaxt keçirir. Bir çox övladlar atalarını yalnız gecə vaxtı görürlər. Bu zaman isə artıq uşaqlar yatmış olurlar. Atanın evə gec gəlməsi ananın tərbiyə yükünü artırır. Bir çox hallada isə məcbur qalıb həm də ata funksiyasını daşımalı olur. Təbii ki, belə bir ağır funksiyanın daşıyıcısı olmağı hər bir ana bacarmır. Bu isə anaların emosionallığına xoşagəlməz təsir göstərir. Övladların nəzərində ataların işləməsi qeyri-müəyyən bir anlayışdır. İş yerinin ailə mühitindən uzaq olması nəticəsində övladları atalarının işləri barəsində aydın təsəvvürə malik olmurlar.

Sonuncu fəslin ***“Uşaqların tərbiyəsində ənənələr və müasirlik”*** adlanan ikinci paraqrafında müasir cəmiyyətin “maşın” cəmiyyətinə doğru inkişaf etməsi ailəyə yeni elmi və texnoloji vasitələrin daxil olması mənəvi əlaqələrin zəifləməsi araşdırılır. Qeyd ediliri ki, yeni rabitə texnologiyaları - internet, süni rabitə peykləri, mobil telefonlar mütamadi olaraq ailə həyatına hakim kəsilir. Bu gün əksər cavan və yeniyetmələr evə daxil olan kimi otağına çəkilir və virtual aləmə daxil olurlar. İnternetdə eyni zamanda səs, görüntü və yazıdan istifadə etmək olur. İnternetin geniş yayılmasının mənfi nəticələrindən biri də ailə üzvləri arasında dialoqların azalması və ailə daxili münasibətlərdə soyuqluq yaranmasıdır. Ailə sahəsinə yeni texnologiyanın və vasitələrin daxil olması ilə övladlar və valideynlər uzun-uzadı, saatlarla yanaşı oturur, söhbət etmədən kompüterlə işləyirlər. İndi çox az ailələr vardır ki, valideyn və uşaqlar yanaşı oturub müxtəlif ailə mövzuları və iş barədə söhbət edirlər. İndiki şəraitdə valideynlə övlad arasında mövcud

əlaqələr soyuqlaşmaya doğru gedir.

İnternetlə yanaşı telefonun da övladlara təsiri qaçılmazdır. Aparılan sorğulardan belə anlaşılır ki, valideynlər mobil telefonu övladlar üçün həyati vasitə hesab edirlər. Valideyinlərin əksəriyyəti mobil telefonu övladlara nəzarət etmək üçün münasib vasitə və onları təhlükələrdən xəbərdar etmək üçün mükəmməl cihaz hesab edirlər. Tədqiqatlara görə, adətən valideynlər övladları şagird olarkən onların harada olmasını kontrol etmək üçün onlara telefon alırlar. Valideynlər daha çox səs ilə övladları ilə əlaqə saxlayırlar və onların səsini eşitməklə sakit olurlar.

Tədqiqat nəticələri göstərir ki, müasir həyatın bu simvolları yeni nəsilər üçün yeni dünya yaradır. Bu dünyaya daha böyüklər laqeyddirlər. Hətta iş o yerə çatır ki, "dövr və zaman dəyişib", "bu günün cavanları öz dünyaları ilə məşğuldurlar" tipli cümlələr eşidilir. Əgər bu məsələdə valideyn bu işə az maraq göstərirsə və ya maraq göstərməzsə təbiidir ki, zaman keçdikcə gizli şəkildə valideynin ailədə nüfuzu zəifləyəcəkdir. Bu da ailədə övladların hakimiyyətinin güclənəcəyindən hekayət edir.

Fəslin ***"Modernizmin ailəyə təsiri"*** adlanan sonuncu paraqrafında modernizmin müxtəlif tərifləri verilir və müasir ailəyə, insanların fərdi və sosial həyatına modernizmin daxil olması araşdırılır.

XXI əsrin ilk onilliklərində biz cəmiyyətin ənənəvilikdən modern sistemə keçməsinin şahidiyik. Bu dəyişiklik, xüsusilə, ailələrdə özünü büruzə verir və ailələri çox ciddi seçim qarşısında qoymuşdur. Belə bir keçid dövrü dünyanı kiçik bir şəhərə çevirmişdir. Dünya xalqları böyük və kiçikliyindən, müxtəlif əqidə və inanclara malik olmasından asılı olmayaraq bir-birinə qovuşmuşlar. Övladların tərbiyə olunub böyüdülməsi də ciddi seçimlə qarşılaşmışdır. Belə nəzərə çarpır ki, bu seçim ənənəvi ailələri sual altına almışdır. Hal-hazırda indiki nəsil elə bir şəraitə düşmüşdür ki, kompüterdən istifadə, xüsusilə, internetdən istifadə insanların həyatında inkar olunmaz bir prosesdir. Yeni texnologiyalar, bir çox informasiya və rabitə problemləri həll olunmuş, asanlaşmış, lakin keçmiş texnologiyaların öz incəliklərini, gözəlliklərini də özü ilə daşıyır, öz mütəxəssislərinə təhlükələr də yaratmışdır. Bu yeni fenomendən ən çox təhlükəyə, zərərə məruz qalan yeniyetmə və cavan nəsildir. Bu yeni texnologiyalar öz-özlüyündə valideyn üçün bir rəqib hesab olunur və onları övladların tərbiyəsində böyük problemlərlə üzləşdirir. Tarix boyu ailə cəmiyyətin formalaşmasında əsas sütunlardan biri kimi inkişaf edir. Zaman keçdikcə ailənin əsasları çoxlu dağıdıcı təhlükələrə məruz qalmışdır.

İnternetə qurşanmaq uşaqlar üçün ailədə və təhsildə ciddi problemlər yaradır. Belə ki, cavanların bəzisi gecələr sübhədək internetdən istifadə edirlər. Bu isə başqa zərərlərin başlanğıcıdır. O cümlədən, bu təhlükələr və zərərlər ailəvi, mənəvi, psixoloji, fiziki, iqtisadi zərərlər ola bilər.

Dissertasiya işinin əsas yekunları **"Nəticə"** hissəsində verilmişdir. Tədqiqat yekunlaşdırılaraq bir sıra təkliflər verilir:

- Ailələrə lazımi biliyin, informasiya və rabitə texnologiyalarından istifadə olunması haqqında doğru-düzgün bilik tərzinin aşılanması, dini, əxlaqi dəyərlərin mənimsənilməsi, maarifləndirmə işinin təşviqi və təbliği;
- Yerli mətbuat orqanlarında keçmiş adət-ənənələrin, nikah-toy mərasimlərinin işıqlandırılması, nikah-toy mərasimləri keçirilən zaman ifrata varmanın qarşısının alınması;
- Mədəniyyət üzrə məsul işçilər tərəfindən sadə nikah-toy mərasimləri zamanı cavanların nikah qeydiyyatının aparılması üçün kompleks elektron saytlarının layihələndirilməsi, bütün ölkə üzrə informasiya saytlarının yaradılması;
- Yerli radio proqramlarında sadə nikah-toy mərasimlərinin təbliği;
- Universitet müəllimləri tərəfindən humanitar və ictimai elmlər sahəsində məzunların diplom işlərində müasir ailə problemlərinin və çətinliklərinin araşdırılıb tədqiq olunması məsələsinin istiqamətləndirilməsi;
- Boşanma zamanı ictimai xəsarətin azaldılması məqsədi ilə ailə məhkəmələrində məsləhətçi və psixoloqlardan istifadə edilməsi;
- İnformasiya-rabitə texnologiyalarının mənfi xüsusiyyətərini nəzərə alaraq müasir texnologiyalardan daha yaxşı istifadə etmək məqsədi ilə, o cümlədən İnternet, mobil telefon və kompyuterdən məqsədə uyğun şəkildə istifadə olunması məqsədi ilə cəmiyyətdə lazımi mədəni-maarif işlərinin aparılması;
- Məktəblərdə tərbiyə işlərinin səviyyəsini qaldırmaq üçün tərbiyəçi-müəllimlər tərəfindən və ailədə valideynlər tərəfindən müasir informasiya texnologiyalarından ifrat dərəcədə istifadə olunmasının təhlükələri və zərərlərinin yeniyetmələrə və cavanlara təlqin edilməsi yolu ilə bu təhlükələrin və zərərlərin səviyyəsi aşağı salınsın;
- Yüksək məbləğli mehriyyələr (südpulu), təmtəraqlı cehizlər cavanların nikaha meylini azaldır. Buna görə də kütləvi-informasiya vasitələrinin məsul işçiləri radio-televiziya vasitəsi ilə lazımi maarifləndirmə işləri aparsınlar;

- Ərlə-arvad arasında qarşılıqlı anlaşma və ahəngdarlığın təbligi məqsədi ilə uğurlu ailələrin müştərək həyat tərzini əks etdirən kinofilmlərin və serial filmlərin nümayişinə diqqət yetirilsin;

- Ərlə-arvad arasında boşanma hallarının yarada biləcəyi bədbəxt nəticələri haqqında münasib təbliğat işinin aparılması;

- Ərlə-arvadın problemlərinin həlli və onların istiqamətləndirilməsi məqsədi ilə ödənişsiz ailə məsləhətxanaları yaralıdsın;

- Ostan universitetlərinin məsul işçiləri tərəfindən konfranslar keçirilsin, mühazirələr oxunsun;

- Bir çox ictimai bəlalar (uşaqların evdən qaçması, uşaqların kobud-cinayətkar davranışı, narkomaniya) boşanma halları nəticəsində baş verir. Buna görə də cəmiyyət bu cür boşanmış ailələri himayəyə götürməklə, onların əsarət altında saxlamaqla yaranmaqda olan ictimai bəlaların qarşısı alınsın. Odur ki, məsul şəxslər tərəfindən tək valideynli ailələr və ailə baş-çılarını itirmiş uşaqların himayə olunması;

- İran cəmiyyəti milli cəmiyyətdən modern cəmiyyətə keçid dövrün-dədir. Onun nəticələri ailə narazılıqlarını psixoloji cəhətdən şiddətləndirir. Bu keçid dövrünün problemlərinin cəmiyyət tərəfindən öyrənilməsi və infor-masiya əldə etməsi həmin problemin qarşısının alınmasında daha səmərəli ola bilər;

- Beynəlxalq ictimaiyyət və beynəlxalq konvensiyalar tərəfində qadın-lara qarşı zorakılığın qarşısının alınması üçün tövsiyələr irəli sürülmüşdür və cəmiyyət qadınlara və uşaqlara qarşı zorakılığın qarşısını almaq üçün bu tövsiyələrə biganə qalmamalıdır;

- Qadın və uşaqlara qarşı zorakılığın aradan qaldırılması məqsədi ilə dini-əxlaqi dəyərlər və hökmlərdən ilahi ədalətin təmin olunmasına xüsusi diqqət yetirilsin;

- Cəmiyyətdə qadın və uşaqlara qarşı zorakılığın azaldılması və aradan qaldırılması məqsədi ilə cari və uzunmüddətli layihələr hazırlansın və həyata keçirilsin.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi məqalələ-rində öz əksini tapmışdır.**

**1.** İran İslam Respublikasinin Qərbi Azərbaycan əyalətində toy adət - ənənələri Urmiya şəhərinin materialları əsasında // Azərbaycan Arxeolo-giyası və Etnoqrafiyası.Bakı :2011, No 1, s.175-184.

**2.** The consequences of divorce on individual, family, society // Life science journal. China: 2012, No 9 (4), s.281-285.

**3.** İran İslam Respublikasının Qərbi Azərbaycan əyalətində müasir dövr mərasimləri // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası .Bakı :2012, No 2, s.99-107.

**4.** Wedding celebration customs of West Azerbaijan and Urmia in Traditin // Life science journal. China: 2012, No 9 (4), s.4811-4814.

**5.** Woman,s experiences of applying for a divorce // Iranian journal of nursing and midwifery research. Iran: 2014, Vol. 19, Issue 2, s.168-172.

**6**. بررسی میزان و انواع خشونت های اعمال شده علیه زنان و عوامل موثر بر آن// مجله دانشکده پرستاری و مامائی ارومیه. 1392.ص 32-65

**7**. طلاق عاطفی، علل و شرایط میانجی// مجله علمی، پژوهشی دانشگاه علوم پزشکی ارومیه. 1393.ص 200- 195 .

**8.** Uşaqların tərbiyə olunmasında ənənələr və müasirlik Urmiya şəhərinin materialları əsasında // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası .Bakı :2015, N 2, s.241-249

**Шамси Мири Гаффарзаде**

# СЕМЕЙНЫЕ ОТНОШЕНИЯ В СОВРЕМЕННОМ ЮЖНОМ АЗЕРБАЙДЖАНЕ
## (На основе материалов города Урмия)

## РЕЗЮМЕ

Диссертация посвящена исследованию современных семейных отношений в Южном Азербайджане. Работа состоит из введения, трех глав, заключения, списка литературы.

Во введении обосновывается актуальность исследования, дается широкий обзор исследований, посвященных данной тематике, анализируется степень изученности современной семьи и семейных отношений в Иране и, в частности, в Южном Азербайджане.

Первая глава диссертации "Формирование семьи и современность" посвящена исследованию традиционных форм семьи в Южном Азербайджане, обычаев и ритуалов, предшествовавших свадьбе. Местное население выполняло все необходимые обряды и ритуалы в соответствии со следующими этапами процесса вступления в брак: знакомство, сватовство, официальное разрешение семьи невесты на сватовство, обручение, получение невесты, приданое, ночь хны, закрытие бани, ритуал заключения брака, отвоз невесты, вступление невесты в семью, уборка постели и приветствование свекрови.

Современные социально-культурные и экономические процессы существенно влияют на сохранность традиционной культуры. Многие элементы традиционной культуры в настоящее время сохраняются только в отдаленных селах. В городах наблюдается в основном урбанизированная культура, характерная для большинства городов мира.Однако, при совершении современных брачных ритуалов в городе Урмия наблюдаются некоторые особенности, которые характерны только для этой области Ирана.

Вторая глава диссертации посвящена положению женщины в современной семье. В этой главе исследуются такие вопросы, как виды современной семьи, влияние ранних браков на внутрисемейные отношения, влияние на состояние семьи таких факторов, как многоженство и разводы.

Третья глава диссертации "Традиции и современность в воспитании детей" посвящена исследованию места детей в системе семейных отношений, взаимоотношению традиций и новаций на воспитание детей, влиянию процессов глобализации на состояние современной семьи.

В заключении подводятся итоги исследования, и дается обзор основных результатов.

**ShamsiMiriGhaffarzadeh**

# FAMILY RELATIONSHIPS IN THE MODERN SOUTH AZERBAIJAN (On the basis of the city of Urmia)

## SUMMARY

The thesis deals with the modern family relations in South Azerbaijan. The work consists of an introduction, three chapters, conclusion, list of references.

In the introduction the relevance of the study, given a broad overview of research on this subject is analyzed stepe study of modern family and relationships in Iran and, in particular, in southern Azerbaijan.

The first chapter of the thesis "Formation of family and Modernity" is devoted to the study of traditional forms of families in southern Azerbaijan, customs and rituals that preceded the wedding. Local people performed all the necessary rites and rituals in accordance with the following process steps of marriage: dating, matchmaking, official approval of the family of the bride to the matchmaking, engagement, getting the bride's dowry, henna night, closing the baths, the ritual of marriage, drove the bride entry bride's family, cleaning the bed and acclaiming in-law.

Modern socio-cultural and economic processes significantly affect the safety of the traditional culture. Many elements of traditional culture are now preserved only in remote villages. In the cities there is basically urbanized culture, typical for most cities in the world. However, when making the modern mating rituals in the city of Urmia, there are some features that are unique to this area of Iran.

The second chapter is devoted to the situation of women in the modern family. This chapter examines issues such as the types of the modern family, the impact of early marriage on family relations, impact on family factors such as polygamy and divorce.

The third chapter of the thesis "Tradition and modernity in the education of children" devoted to the study of the place of children in the family relations, the relationship of tradition and innovation in the education of children, the impact of globalization on the state of the modern family.

In conclusion summarizes the study and gives an overview of the main results.

Сифариш № 4. Тиражы 100 нцсхя

Азярбайъан МЕА Эеолоэийа və Geofizika Институту
«Нафта-Пресс» няшриййаты
Бакы, Щ.Ъавид пр. 119, Тел.: 539-39-72

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
ИНСТИТУТ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ**

*На правах рукописи*

**ШАМСИ МИРИ ГАФФАРЗАДЕ**

# СЕМЕЙНЫЕ ОТНОШЕНИЯ В СОВРЕМЕННОМ ЮЖНОМ АЗЕРБАЙДЖАНЕ
## (На основе материалов города Урмия)

5102.01 –Этнография и этнология

# А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по истории

**БАКУ–2016**